# FOSFORUN SİNERGETİK TƏDRİSİ

**R.M.Ağayeva, İ.M.Xalıqverdiyev**

*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

Məqalədə əsas məqsəd fosforun sinergetik tədrisi prosesinin modelini tərtib etməkdir. Kimyanın sinergetik tədrisi zamanı hər hansı bir mövzunu, həmçinin fosfor mövzusunu tədris edərkən həmin mövzu bütöv tam kimi götürülür. Onun tərkibinə daxil olan hissələr ayrı-ayrılıqda təhlil edilir və əlaqələndirilir. Beləliklədə mövzu haqqında şagirdlərdə tam təsəvvür formalaşır. Fosforun sinergetik tədrisi zamanıda ilk öncə onun mənbəyi, mənşəyi və insan həyatındakı rolu haqqında şagirdlərə məlumat verilir. Sonra isə müəllim fosforun mühüm birləşmələri haqqında məlumat verməklə digər elementlərdən fərqli və oxşar xassələrini göstərir. Sonra onun təbii birləşmələri, sənayedə alınması, fiziki xassələri, kimyəvi xassələri sinergetik təhlil vasitəsilə öyrənilir. Bu ardıcılıqla onun mühüm birləşmələridə öyrənildikdən sonra həm özünün, həmdə birləşmələrinin tətbiqi əhəmiyyəti sinergetik təhlil vasitəsilə şərh edilir. Fosforun bu cür tədrisi onun mənimsənilməsini asanlaşdırır.

Tamın tərkib hissələrinin qanunauyğun qarşılıqlı araşdırılması nəticəsində onun özünün inkişafı, özünün bərpasını və özünü saxlama bacarığının birlikdə öyrənilməsi elminə sinergetika deyilir [1].

Sinergetikanın əsas müddəalarına nəzər salmaqla bu elmin mahiyyətini başa düşə bilərik. Aşağıda biz bu müddəaları və onların sinergetik təhsil modelinin təşəkkülündə tətbiqi əhəmiyyətini açıqlamağa çalışacağıq.

Sinergetikanın metodoloji əsasını sintez təşkil edir. Klassik paradiqmada isə analizə üstünlük verilirdi. Lakin analiz destruktiv xarakterə malikdir. Analizin mahiyyəti sistemi parçalara bölmək, hər bir parçanı ayrı ayrılıqda öyrənib ümumi sistem haqda fikir formalaşdırmaqdır. Analiz destruktiv bir metod olduğundan canlı sistemləri öyrənəndə ondan istifadə etmək mümkün olmur. Sintez üsulu ilə isə asanlıqla canlı sistemləri öyrənmək mümkündür. Həmçinin sinergetikada sintez üsulundan istifadənin digər səbəbi sinergetikaya görə sistemdə hissəciklərin bir, sistemdən kənarda isə başqa xassələr göstərməsi ilə əlaqədardır.

Deyilənlər təhsil sisteminə də aid edilə bilər. Bildiyimiz kimi məktəb şagirdə təhsil verir və hal-hazırki dövrdə təhsilin qarşısında duran əsas məqsəd şagirdlərin öyrəndikləri biliyi kəmiyyətcə deyil, keyfiyyətcə yüksəltməkdir. Sinergetik təhsil modelinə əsasən şagidlərə öyrədilən biliyin keyfiyyətini artırmaq üçün həmin biliyin məzmunu ilə bağlı informasiyaları şagirdlərə çatdırarkən fənlər bir birindən kəskin şəkildə tədric edilməməli, tam əksinə olaraq onlar bir

biri ilə əlaqələndirilməli və biliyin ümumi məzmunu formalaşdırılıb şagirdlərə tədris edilməlidir.

Sinergetika özünütəşkil proseslərini və sistemlərini öyrənir. Mühitlə əlaqədə olan sistem (buna açıq sistem deyilir) özünütəşkiletmə və strukturunu mükəmməlləşdirmə prosesində ətraf aləmdən maddə, enerji və informasiyanı qəbul edir. Sistem özünütəşkil etdikdə və strukturunu mükəməlləşdirdikdə əmələ gələn tullantıları ətraf aləmə ataraq özünü rahatlaşdırır. Qapalı sistemdə isə sistemlə ətraf mühit arasında mübadilə prosesi baş vermədiyindən sistem öz resusları hesabına özünü təşkil etməyə məcbur olur. Digər tərəfdən əmələ gələn tullantıları sistem xaricə ata bilmir və daxili nizamı pozulur və yeni nizamın əldə olunması reallaşmır.

Yuxarıda qeyd olunan özünü təşkilatlandırma təhsil aspektində özünütəlim anlamına gəlir. Şagird biliyi və informasiyanı yalnız mühitdən almır. O həmçinin mühitdən aldığı informasiyaları sistemin daxili imkanları hesabına sistemin daxilində artıq formalaşmış biliklərlə sintez edir. Bu proses özünütəlim adlanır. İstənilən açıq sistem üçün xarakterik olan özünüinkişaf təlim prosesində də baş verir. Müasir dövrdə təlim prosesində müəllim şagirdə biliyin əldə edilməsində optimal yol göstərməli və daha çox şagirdin özünütəlim imkanlarını işə salmalıdır.

Sinergetika açıq sistemlər haqda yuxarda qeyd edilən müddəalardan çıxış edərək iddia edir ki, təlim prosesi informasiyanın fənn müəllimi tərəfindən verilməsi şagird tərəfindən qəbul edilməsi prosesi deyil. Sinergetikaya görə təlim prosesi müəllim və şagirdlərin materialı qarşılıqlı işləməsi, birgə əməkdaşlıq və problemin həllində qarşılıqlı anlaşma üzərində qurulmalıdır.

Müəllim şagird münasibətlərinin tiplərini nəzərdən keçirsək 3 variantın olduğunu görərik.

1-ci variantda müəllim informasiyanı ötürür şagird isə onu olduğu kimi əzbərləyir. Bu tip münasibət müsahibə, mühazirə və s-də özünü göstərir. Burada şagird həm digər şagirdlərdən, həm müəllimdən izolə edilmiş olur. 2-ci variant müəllimlə şagirdin qarşılıqlı əlaqəsini ifadə edir. Bu varianta əsasən təlim prosesində əməkdaşlıq pedaqoqikasının prinsiplərini həyata keçirmək və təlimin uğurlu yerinə yetirilməsinə nail olmaq o zaman mümkündür ki, bu qarşılıqlı əlaqə formal sual-cavab xarakteri daşımasın. 3-cü variant sinergetik təhsil modelinin təklif etdiyi variantdır. Burada həm müəllim həm şagirdlər açıq sistemlərdir. Onlar arasında sinergetik münasibətlər üçün heç bir maneə yoxdur.

Sonuncu variantda mövcud olan təlim prosesində şagird təkcə müəllimdən deyil, həm də bir-birindən öyrənirlər. Bu cür təlim prosesində hal-hazırda interaktiv təlim metodlarından geniş istifadə edilir.

Sinergetikaya görə təbiətdə və cəmiyyətdə baş verən proseslər funksiyasına görə əsasən qeyri-xəttidir. Məsələn fermerin 6 ha sahədən 24 ton məhsul alırsa, bu o demək deyil ki, o 10 ha sahədən 40 ton məhsul alacaq. Belə ki bu zaman

sistemdə müəyyən təsadüflər baş verə bilər və lazımı məhsul əldə edilə bilməz. Xətti təfəkkür bu təsadüfləri nəzərə almadığı halda bu təsadüfləri qeyri-xətti təfəkkür nəzərə alır.

Sinergetik təhsil modelində şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsində də qeyri-xətti təfəkkürdən istifadə edilməsi məsləhət bilinir. Məsələn əgər güclü şagirdin edə bilməyəcəyi çalışmanı əvvəllər zəif şagirdlərə verilməsi xətti-təfəkkürə görə mənasız qəbul edilirdisə, hal hazırda qeyri-xətti təfəkkürə görə bu düzgün bir haldır.

Hər hansı bir kimyəvi biliyin sinergetik öyrədilməsi kimya metodologiyasının vacib məsələlərindən hesab olunur. Kimya elminin sinergetik metodoloji baxımdan tədrisi kimyanı öyrənənlərin fəallığnı, elmə olan həvəsini artırır [1].

Bizim vəzifəmiz elmi biliklərin yalnız bir parçasını öyrətmək deyil, eyni zamanda dünya elm evini bir-biri ilə qırılmaz, sonsuz əlaqədə saxlayan sinergetik vəhdəti öyrətməkdir. Bu baxımdan deyə bilərik ki, kimyəvi sinergetika kimyada yeni elmi dünya görüşüdür[2-3]. Əgər biz təbiət elmlərini öyrənilən vahid kimi qəbul etsək, onda onların sinergetikası ayrı-ayrı təbiət elmlərinin öyrənilməsini təşkil edir, onda fizika, biologiya, geologiya və kimyanın vahid şəkildə öyrənilməsi tələb olunur. Biz kimyanı vahid qəbul etsək, onda onun bütün başlıqlarının daha sistemli və dərindən öyrənilməsi lazımdır. Kimyəvi biliklərin sinergetik öyrədilməsi əsasən elmi biliklərin daha da ekstensiv və intensiv öyrənilməsini ortaya qoyur. Aşagıda biz fosforun sinergetik metodoloji araşdırılması ilə yanaşı onun tədrisinin təşkilini nəzərinizə çatdırmaq istəyirik.

Hər hansı kimyəvi elementin sinergetik öyrədilməsi zamanı əvvəlcə həmin elementin mənbəyi, mənşəyi, onun insan həyatında əhəmiyyəti barədə məlumat vermək daha məqsədəuyğun hesab olunur[1]. Məsələn, fosforun sinergetik tədrisi zamanı ilk öncə onun əsas mənbəyinin heyvan mənşəli ərzaq məhsulları olduğu vurğulanır. Lakin taxıl və paxlalı bitkilərin tərkibində də fosforun olduğu qeyd edilir. Daha sonra onun təbiətdə dövranı haqqında şagirdlərə məllumat verilir. Fosfor bioloji və biokimyəvi proseslərdə böyük rol oynadığı üçün mühüm kimyəvi elementlərdən biri sayılır. Bu da canlı orqanizmin fosfora nə qədər çox tələbatının olduğunu göstərir. Ona görə də ilk öncə bitkilər torpağın tərkibindəki çürüntülərdən həmin bu elementi mənimsəyir və inkişaf edir. Çürüntünün miqdarı az olduqda fosforun bir sıra birləşmələrindən mineral gübrə kimi məhsuldarlığı artırmaq üçün istifadə edilir. Daha sonra həmin bu bitkiləri heyvanlar və ya insanlar bilavasitə qəbul edir. İnsanlar həm bitki həm heyvanlarla qidalandığından onlar fosforu həm bitkilərin, həm də heyvanların orqanizmindən mənimsəyir. Heyvanat mənşəli məhsullardakı fosforun orqanizmdə 95%-i, bitki mənşəli məhsullardakı fosforun isə 55-60%-i mənimsənilir. Fosforun mənimsənilməsi kalsiumun mənimsənilməsindən, qidanın tərkibindəki zülalın miqdarından və digər amillərdən asılıdır. Daha sonra canlı orqanizmalar məhv olduqdan sonra

fosfor yenidən cansız mühitə, torpağa qayıdaraq öz dövranını tamamlayır. Fosforun insan həyatındakı əhəmiyyətindən bəhs edərkən ilk öncə onun canlı orqanizimdə karbohidrat, zülal və yağların həzmində iştirak etdiyini və hüceyrələrdəki bütün enerji dövranının bu element iştirakında getdiyini qeyd etmək lazımdır. Daha sonra ona sümüyün, sinir toxumasının və hüceyrələrin ən əhəmiyyətli maddələri olan DNT və RNT-nin, fosfolipidlərin, qliserinin, yağ turşuları və fosfat turşusunun mürəkkəb efirlərinin, ATF-nin tərkibində rast gəlindiyi qeyd edilməlidir. Növbəti mərhələdə müəllim fosforun mühüm birləşmələri haqqında məlumat verməklə digər elementlərdən fərqli və oxşar xassələrini göstərir. İlk öncə müəllim fosforun bir sıra üzvi və qeyri üzvi birləşmələr əmələ gətirdiyini qeyd edir. Bundan sonra müəllim fosforun əsas qida elementi olduğunu, bu səbəbdən onun bir sıra birləşmələrindən gübrə kimi istifadə edildiyini qeyd edir və həmin birləşmələrin fosforun əsas birləşmələrinə aid olduğunu şagirdlərə çatdırır. Onlar haqqında şagirdlərə geniş məlumat verir. Fosfor gübrələrinin fosforit mineralı və apatitlər əsasında alındığını qeyd edən müəllim burada əsas etibarı ilə flüorapatit və apatit-hidroksiddən istifadə olunduğunu vurğulayır. Müəllim məlumat verməyə davam edir: fosforiti dəyirmanda üyütməklə fosforit unu alınır. Fosforit unu və flüorapatit torpaq sularında pis həll olduğu üçün bitkilər tərəfindən çox yavaş və uzun müddətdə mənimsənilir. Həll olan fosforlu gübrələrə monokalsium fosfat və dikalsium fosfatı misal göstərmək olar. Bunlar fosforit unu və flüorapatitdən fərqli olaraq suda asan həll olduqlarından bitkilər tərəfindən tez mənimsənilir. Bir sıra digər fosfor gübrələrindən bəhs edən müəllim daha sonra fosforun canlı orqanizmdə olan mühüm birləşmələri (ADF, ATF, DNT, RNT və s.) haqında şagirdlərə ətraflı məlumat verir. Bundan sonra müəllim fosfor turşuları içərisində fosforun əsas birləşməsi hesab olunan ortofosfat turşusunu sinergetik təhlil edir.

Daha sonra fosforun təbiətdə yayılmasından bəhs edən müəllim onun birləşmələr şəklində yayıldığını və əsas birləşmələrinində fosforit mineralı ($Ca_3(PO_4)_2$) və apatitlər ($3Ca_3(PO_4)_2 \cdot CaX_2$ (X= F,Cl,OH)) olduğunu qeyd edir. Sonra müəllim fosforun sənayedə alınmasından bəhs edir. Müəllim fosforun sənayedə fosforit mineralının koks və qumla qarışdırılaraq 1500°C-də közərdilməsi nəticəsində alındığını qeyd edir.

$$2Ca_3(PO_4)_2+10C+6SiO_2 \xrightarrow{t} 6CaSiO_3+10CO\uparrow+P_{4\,(\text{ağ fosfor})}$$

Fosforun sənayedə alınması nəzərdən keçirildikdən sonra fiziki xassələri təhlil edilir və aşağıdakı nəticələr əldə edilir.

Fosforun 3 allotropik şəkildəyişməsi mövcuddur: ağ, qırmızı və qara fosfor.

1) ağ fosfor- sarıya çalan, bərkliyi az olan, bərk halda molekulyar quruluş əmələ gətirən, suda həll olmayan, $CS_2$-də yaxşı həll olan, qaranlıqda işıq saçan, zəhərli sıxlığı 1.8 q/sm$^3$ olan, su altında bıçaqla kəsilən kristal maddədir.

2) qırmızı fosfor- Tünd qırmızı rəngli, bərk halda atom kristal qəfəs əmələ gətirən, su və $CS_2$-də həll olmayan, zəhərsiz, sıxlığı 2.3 q/sm$^3$ olan, toz halında maddədir.

3) qara fosfor- qara rəngli, bir qədər yumşaq, bərk halda atom kristal qəfəs əmələ gətirən, su və $CS_2$-də həll olmayan, zəhərsiz, sıxlığı 2.7 q/sm$^3$ olan, bərk aqreqat halında olan maddədir.

Fiziki xassələrin təhlilindən sonra onun kimyəvi xassələrinin təhlili həyata keçirilir. Bu zaman aşağıdakı nəticələr əldə edilir.

Fosforun allotropik şəkildəyişmələrindən ağ fosfor digərlərindən daha aktivdir.

1.Fosforun alotropik şəkildəyişmələrinin bir birinə çevrilməsi.

Ağ fosfor hava daxil olmadan qızdırıldıqda tədricən qırmızı fosfora çevrilir. Qırmızı fosforu isə hava daxil olmadan güclü qızdırdıqda buxara çevrilir, alınmış buxarlar kondesləşdikdə ağ fosfor əmələ gəlir.

2. Bəsit maddələrlə reaksiya.

a) Qeyri-metallarla reaksiya

Fosfor əksər qeyri metallarla reaksiyaya girir, hidrogen ilə birbaşa qarşılıqlı təsirdə olmur. Ağ fosfor oksigenlə 40ºC-də qırmızı fosfor 260ºC qara fosfor 290ºC reaksiyaya girir. Oksigen çatışmadıqda $P_2O_3$, tam yandıqda isə $P_2O_5$ əmələ gəlir.

$4P + 5O_2 \rightarrow 2P_2O_5$

$4P + 3O_2 \rightarrow 2P_2O_5$

Xlor və kükürd ilə reaksiya zamanı maddələrin kütlə nisbətindən asılı olaraq müxtəlif məhsullar alınır.

$2P + 3Cl_2 \rightarrow 2PCl_3$ $\qquad$ $2P + 3S \rightarrow 2P_2S_3$

$2P + 5Cl_2 \rightarrow 2PCl_5$ $\qquad$ $2P + 5S \rightarrow 2P_2S_5$

b) Metallarla reaksiya.

Fosfor qızdırıldıqda əksər metallarla reaksiyaya girib fosfidlər əmələ gətirir.

$3Ca + 2P \xrightarrow{t} Ca_3P_2$; $\quad$ $3Na + P \xrightarrow{t} Na_3P$; $\quad$ $Al + P \xrightarrow{t} AlP$

Fosfor yüksək temperaturda katalizator iştirakında su ilə reaksiyaya girir.

$2P + 8H_2O \xrightarrow{700^oC, Cu} 2H_3PO_4 + 5H_2$

Fosforun kimyəvi xassələrininin sinergetik təhlilni həyata keçirdikdən sonra müəllim keçir onun birləşmələrini şagirdlərlə sinergetik təhlil etməyə başlayır. İlk öncə onun hidrogenli birləşməsi olan fosfin sinergetik təhlil edilir. Bu zaman fosfinin qoxumuş balıq iyi verən, zəhərli qaz olduğunu qeyd edən müəllim, onun bir başa fosforun hidrogenlə qarşılıqlı təsiri nəticəsində alınmadığını və bu səbəbdən də dolayı yollardan istifadə edildiyini qeyd edir. Belə ki fosfin, fosfidlərin su və ya xlorid turşusu ilə qarşılıqlı təsirindən alınır.

$Ca_3P_2 + 6H_2O \rightarrow 3Ca(OH)_2 + 2PH_3$

$Ca_3P_2 + 6HCl \rightarrow 3CaCl_2 + 2PH_3$

Daha sonra fosfinin kimyəvi xassələri təhlil edilərkən onun havada alovlandığı qeyd edilir:

$2PH_3 + 4O_2 \rightarrow P_2O_5 + 3H_2O$

Fosfinin sinergetik təhlilindən sonra fosforun oksidləri sinergetik təhlil edilir. Bu təhlilin sonunda aşağıdakı nəticələr əldə edilir.

Fosfor $P_2O_3$ və $P_2O_5$ formullu oksidlər əmələ gətirir. Bu onların sadə empirik formullarıdır. Onların həqiqi formulları isə mürəkkəbdir. Buxar halında onlar dimer şəklində, adi şəraitdə isə bərk aqreqat halda olurlar.

$P_2O_3$ havada öz özünə oksidləşərək $P_2O_5$-ə çevrilir.

$P_2O_3 + O_2 \rightarrow P_2O_5$

Hər iki oksid turşu oksidləridi. Onlar su ilə reaksiyaya daxil olduqda müvafiq turşuları əmələ gətirir. $P_2O_5$ güclü hiqroskopik xassəyə malik olan maddədi o bəzi turşularla reaksiyaya girərkən onun tərkibindəki suyu asanlıqla udaraq fosfat turşusuna çevrilir.

$P_2O_5+6HNO_3 \xrightarrow{t} 2H_3PO_4+3N_2O_5$

Fosforun turşularını sinergetik təhlil etdikdə ortofosfat turşusunun sinergetik təhlilinə daha çox önəm verilir. Bu zaman ilk olaraq onun fiziki xassələrinə nəzər salınır. Sinergetik təhlil vasitəsilə onun adi şəraitdə suda yaxşı həll olan bərk maddə olduğu qənaətinə gəlinir.

Sonra ortofosfat turşusunun alınması sinergetik təhlil edilir və aşağıdakı nəticələr əldə edilir.

Sənayedə ortofosfat turşusu fosforit mineralından alınır.

a) fosforit mineralına qatı sulfat turşusu ilə təsir etməklə.

$Ca_3(PO_4)_2+3H_2SO_4 \rightarrow 3CaSO_4+2H_3PO_4$

b) fosforit mineralından mərhələlərlə.

1. $Ca_3(PO_4)_2 +3SiO_2+5C \xrightarrow{t} 3CaSiO_3+5CO+2P$
2. $4P+5O_2 \rightarrow 2P_2O_5$
3. $P_2O_5+3H_2O \xrightarrow{t} 2H_3PO_4$

Fiziki xassələri və alınmasından sonra ortofosfat turşusunun kimyəvi xassələri sinergetik təhlil edilir. Kimyəvi xassələrin sinergetik təhlilindən aşağıdakı nəticələr alınır.

Ortofosfat turşusu orta qüvvətli üçəsaslı turşudur. Bütün turşulara məxsus xarakterik xassələri göstərir, lakmusu qızardır aktivlik sırasında hidrogenə qədər olan metallarla reaksiyaya girib hidrogeni çıxarır, əsasi oksidlərlə əsaslarla reaksiyaya girir, özündən zəif turşuları duzlarından sıxışdırıb çıxarır.

Ortofosfat turşusu əsaslarla və ammoniumhidroksidlə reaksiyası zamanı əsas və turşunun mol miqdarından asılı olaraq normal, mono və dihidroduzlar əmələ gətirir. Alınan normal və hidroduzlar fosfat turşusunun özü ilə reaksiyaya girir. Bu zaman müvafiq olaraq normal duzun fosfat turşusu ilə reaksiyasından

hidroduzlar, hidroduzların fosfat turşusu ilə reaksiyasından isə dihidroduzlar alınır.

Ortofosfat turşusu qızdırıldıqda su itirərək mərhələlərlə pirofosfat və ortofosfat turşularına çevrilir. $PO_4^{3-}$ ionunu təyin etmək üçün $Ag^+$ ionundan istifadə edilir.

Yekunda isə fosfor və onun birləşmələrinin tətbiqi keçmişdə və müasir dövrdə müqayisəli şəkildə izahla, misallarla şərh edilir. Bu zaman müəllim qeyd edir.

Ağ fosfor- yandırıcı bombaların, tüstü pərdələrinin alınması və s-də, qırmızı fosfor-kibrid istehsalı və s.də, $P_2O_5$-qazların qurudulması, ortofosfat turşusunun alınması və s.də, ortofosfat turşusunun duzlarından ($NH_4H_2PO_4$, $(NH_4)_2HPO_4$, $Ca(H_2PO_4)_2$) gübrə kimi istifadə olunur.

Kimyada elmi biliklərin sinergetik metodoloji tədrisi fəallığın, marağın, məntiqi təfəkkürün inkişaf etdirilməsinə və nəhayət tədrisində əsas şərt olan təlim-tərbiyənin və mənimsəmənin artırılmasına səbəb olur[4].

Bunuda əminliklə deyə bilərik ki, kimya elmi bu gün sinergetika elminin naliyyətləri ilə daha da zənginləşir, uğura doğru addımlayır. Çünki sinergetika insan zəkasının bu vaxtadək gizli qalmış potensial imkanlarından istifadə etməklə proses və hadisələrin elmə indiyədək məlum olmayan qanunauyğunluqlarını açmaqla insanın təbiətlə ən yüksək intelektual dialoqunun başlanğıcını qoymuşdur[5-6].

## İstifadə edilmiş ədəbiyyat:

1.K.N.Haqverdiyev, Ə.T.Əzizov, T.N.Abdullayeva, L.E.Məmmədova. Hidrogenin sinergetik tədrisi / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş doktrant, magistr və gənc tədqiqatçıların "Kimyanın aktual problemləri" VIII Respublika Elmi Konfransının Materialları. Bakı, 2014, s.79-80.

2. Болдачёв А.В.Новации. Суждения в русле эволюционной парадигмы. СПб.: Изд-во С.-Петерб. Ун-та, 2007, 256с.

3. Василькова В.В. Порядок и хаос в развитии социальных систем: Синергетика и теория социальной самоорганизации. СПб.: Изд-во «Лань», 2009, 420 с.

4. K.N.Haqverdiyev, Ə.T.Əzizov, T.N.Abdullayeva, L.E.Məmmədova. Kimya metodologiyasının sinergetik izahı / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş doktrant, magistr və gənc tədqiqatçıların "Kimyanın aktual problemləri" VIII Respublika Elmi Konfransının Materialları. Bakı, 2014, s.80-81.

5. Məhərrəmov. Ə.B., R.M.Səmədova. Sistemli yanaşma və sinergetik paradiqma. Bakı, 2012, 279 s.

6.Məmmədov Ə.B., Bəşirov R.İ. Müasir təbiətşünaslığa konseptual yanaşma. Bakı; Elm, 2001, 757 s.

*Р.М.Агаева, И.М.Халыгвердиев*

**Синергетическое преподавание фосфора**

**РЕЗЮМЕ**

В статье основная цель состоит из составления модели процесса синергетического преподавания фосфора. В ходе синергетического преподавания химии следует преподавать любую тематику, в том числе тему о фосфоре, что дает возможность представить его единым целым. Его составные части анализируются и координируются по отдельности. Таким образом, у учеников формируется полноценное представление. Во время синергетического преподавания фосфора ученики получают информацию в первую очередь, об источнике, происхождении и о роли данного элемента в жизни человека. Затем учитель, информируя учеников о важнейших соединениях фосфора, указывает на его схожие и отличительные черты по сравнению с другими элементами. Затем с помощью синергетического анализа изучаются его природные соединения, методы получения в промышленности, физические и химические свойства. После изучения его важнейших соединений благодаря данной последовательности значимость применения фосфора и его соединений излагается с помощью синергетического анализа. Такое преподавание фосфора облегчает процесс его освоения.

*R.M Aghayeva, I.M Khaligverdiyev*

**Synergetic teaching of phosphorus**

**SUMMARY**

Key goal in the article is the compilation of model of process of synergetic teaching of phosphorus. Related topic is considered wholly when teaching any topic during synergetic teaching of chemistry, as well as topic about phosphorus. Parts within its content are analyzed and coordinated separately. Thus, common imagination is formed in students about the topic. First of all students are informed about source, origin and role in human life during synergetic teaching of phosphorus. Further, Teacher, by giving information about significant combinations of phosphorus, indicates different and similar features with other elements. Then, its natice combinations, obtaining in industry, physical properties, chemical properties are studied through synergetic analysis. After study is significant combinations in this sequence, significance of both its own and its combination's application is interpreted through synergetic analysis. Such method of teaching of phosphorus facilitates its appropriation.

**Açar sözlər:** sinergetika, açıq sistem, özünü təşkil, özünü təlim, fosfor

**Ключевые слова:** синергетика, открытая система, самоорганизованный, самообучения, фосфор

**Key words:** synergetics, open system, self-organized, self-learning, phosphorus.